# Heydər Baba

Heydər Baba, söz-söhbətin başlayır,
Az qala ki, mənim bağrım çatlayır.
Qız gəlinlər dərd əlindən ağlayır,
Bu elinə gəl bircə gün ağla sən,
Bu Milləti bu dünyada saxla sən.

Heydər Baba, dərd sərimiz böyükdür,
Keçmiş dostlar bu gün bizə dönükdür.
Umidimiz təkçə sənə böyükdür,
Allah bizə çox görməsin heç səni,
Biz bilmərik bizə həmdəm kimsəni.

Heydər Baba, bir az da tez gəlsəydin,
Millət nələr çəkdi sənsiz bilsəydin.
O, yanvarda Bakımızı görsəydin,
Bala ölüb, ana gəzir balasın,
Sağ qalanın ümidi yox sağ qalsın.

Heydər Baba, müttəhimlər qaçdılar,
Xain əllər gizli qapı açdılar.
Afiyyəddinə gizli güllə atdılar,
Allah səni hifz eyləsin düşməndən,
Qanlar axsın, sənə baxan pis gözdən.

Heydər Baba, millətimiz didişir,
Tez-tez burda prezidentlər dəyişir.
Bir az güclü, az zəifə girişir,
Bu gedişlə biz gedirik gör hara,
Sənsiz bizə çox vurulubdur yara.

Heydər Baba, təlatümü ram etdin,
Bir iş gördün sən KƏBƏni yad etdin.
Bu dünyada sən axır bir ad etdin,
Ömür etsin sənə vəfa qoy indi,
Yaman-yaxşı gec də olsa bilindi.

Heydər Baba, dediklərim düz oldu,
Bura gəldin söhbət oldu, söz oldu.
Oturduğun kresloda göz oldu,
Olmasın heç baş otağımız qoy sənsiz,
Nə lazımıq bu dünyada biz sənsiz.

Heydər Baba, sözüm hələ qurtarmır,
Millət hələ lazımınca dolanmır.
Düz beş ildir xalqım qana boyanmır,
Minnətdardır, alqışlayır xalq səni,
Allah heç vaxt xar etməsin heç səni.

Heydər Baba, kaş o gündə gələydin,
Ağlar gözüm Qarabağda güləydi.
Xəzri külək bu dərdləri sökəydi,
Kaş olaydın o Şuşada bir də sən,
Qismət olsun o günləri görəsən.

Heydər Baba, dünya verir xəbərin,
Həm sözüsən, həm söhbəti SƏRVƏRin.
Olmasın heç bu dünyada kədərin,
Mən yazmışam qoy bütün xalq dinləsin,
Bütün Millət sənə İTAƏT ETSİN!

**Sərvər QULUZADƏ, şair,**
**Maştağa qəsəbəsi, 1998-ci il**

